| Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 02. 03. 09 tarixli 17 №-li əmri ilə təsdiq edilib və 01. 04. 2009-cu ildən qüvvəyə minib | **Azərbaycan Respublikasının**<br>**Dövlət Tikinti Normaları** | AzDTN 2.9-1 |
|---|---|---|
| | Magistral boru kəmərləri üçün torpaq ayrılması normaları | CH 452-73 əvəzinə |

1. Bu normalar magistral yeraltı boru kəmərləri (qaz, neft və neft məhsulları kəmərləri) üçün torpaq zolaqlarının enini və həmin boru kəmərlərinin bağlayıcı armaturunun yerləşdirilməsi üçün torpaq sahələrinin ölçülərini təyin edir.

*Qeyd: 1. Magistral yeraltı boru kəmərləri üçün torpaq zolaqları həmin boru kəmərlərinin tikintisi dövründə – müvəqqəti olaraq qısa müddətə, bağlayıcı armaturun yerləşdirilməsi üçün torpaq sahələri isə – müddətsiz (daimi) istifadə üçün ayrılır.*

*2. Magistral yerüstü və yer səthindən yuxarı çəkilən boru kəmərləri üçün torpaq zolaqlarının eni və bu kəmərlərin bağlayıcı armaturlarının yerləşdirilməsi üçün torpaq sahələrinin ölçüləri müəyyən edilmiş qaydada təsdiq olunmuş layihə ilə təyin edilir.*

*3. Magistral boru kəmərləri üçün torpaq zolaqlarını layihədə nəzərdə tutulan tikinti növbəliliyinə müvafiq olaraq sahələr üzrə ayırmaq lazımdır.*

2. Magistral boru kəmərləri üçün torpaq sahələrinin seçilməsində, ayrılmasında və istifadəsində respublikanın torpaq qanunvericiliyinin Əsaslarının, faydalı qazıntı yataqlarının işlənilməsində, geoloji-kəşfiyyat, tikinti və digər işlərin aparılmasında pozulan torpaqların bərpa edilməsi üzrə əsas müddəaların və respublika ərazisində tətbiq edilən digər müvafiq normativ sənədlərin tələblərinə riayət edilməlidir.

3. Bir magistral yeraltı boru kəmərinin tikintisi dövründə müvəqqəti olaraq qısa müddətə ayrılan torpaq zolağının eni cədvəl 1-in göstəricilərinə əsasən təyin edilməlidir.

4. İki və daha çox paralel magistral yeraltı boru kəmərlərinin tikintisi dövrü üçün müvəqqəti olaraq qısa müddətə ayrılmış torpaq zolağının enini bir boru kəməri üçün torpaq zolağı eni ilə (bu normaların cədvəl 1-də göstərilən) yanaşı kənar boru kəmərlərinin oxları arasındakı məsafənin cəminə bərabər ölçüdə qəbul etmək lazımdır. Yanaşı qoyulan boru kəmərlərinin oxları arasındakı məsafə cədvəl 2 üzrə qəbul edilməlidir.

5. Yeraltı magistral boru kəmərlərinin bağlayıcı armaturunun yerləşdirilməsi üçün müddətsiz (daimi) istifadəyə ayrılmış torpaq sahələrinin hər biri 10x10 m-dən artıq olmayan ölçülərdə qəbul edilməlidir.

Cədvəl 1

| Boru kəmərinin diametri, mm | Bir yeraltı boru kəməri üçün torpaq zolağının eni, m | |
|---|---|---|
| | Qeyri-kənd təsərrüfatı təyinatlı və ya kənd təsərrüfatı üçün yararlı olmayan və dövlət meşə fondu torpaqlarında | Az yararlı kənd təsərrüfatı torpaqlarında (məhsuldar qatın çıxardılması və bərpası hallarında) |
| **1** | **2** | **3** |
| 1. 426 mm-ə qədər (426 mm daxil olmaqla) | 20 | 28 |
| 2. 426 mm-dən artıq 720 mm-ə qədər (720 mm daxil olmaqla) | 23 | 33 |

Cədvəl 1-in davamı

| | | |
|---|---|---|
| 3. 720 mm-dən artıq 1020 mm-ə qədər (1020 mm daxil olmaqla) | 28 | 39 |
| 4. 1020 mm-dən artıq 1220 mm-ə qədər (1220 mm daxil olmaqla) | 30 | 42 |
| 5. 1220 mm-dən artıq 1420 mm-ə qədər (1420 mm daxil olmaqla) | 32 | 45 |

*Q e y d: 1. Dövlət meşə fondundan magistral boru kəmərləri üçün torpaqların ayrılması əsasən ağaclarla örtülməmiş sahələrin və yaxud kolluqlarla və az qiymətli bitkilərlə örtülmüş sahələrin hesabına edilir. Lazım gəldikdə göstərilən məqsədlər üçün müstəsna hallarda meşə örtüklü dövlət meşə fondu torpaqlar ayrıldıqda magistral boru kəmərləri üçün torpaq zolaqlarının eni, müvafiq diametrli boru kəmərləri üçün cədvəl 1-in 2-ci sütununda göstərilən en ölçülərindən artıq olmamaqla, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılaraq təyin edilə bilər.*

*2. Magistral boru kəmərləri üçün torpaqların istifadəyə verilməsi və ayrılması «Azərbaycan Respublikasının Torpaq Məcəlləsi» və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarına uyğun olaraq aparılmalıdır.*

*3. Diametri 1420 mm-dən artıq olan magistral yeraltı boru kəmərləri və çətin keçilən yerlərdə (bataqlıqlardan, şoranlıqlardan, dağlıq şəraitlərdən və s.) tikilən boru kəmərləri üçün ayrılmış torpaq zolaqlarının eni, həmçinin yanğın əleyhinə və qəzaya qarşı qurğuların (çəkilən bəndlərin, neft və neft məhsulları üçün qanovlar və tutumlar), boru kəmərlərinin katod mühafizə stansiyaları, nasos və kompressor stansiyalarının qoşulma qovşaqları, boruların təmizləmə qurğuları, təbii və süni maneələrdən keçidlərin tikintisi üçün torpaq sahələrinin ölçüləri, müəyyən edilmiş qaydada təsdiq olunmuş layihə ilə müəyyən edilir.*

*4. Magistral boru kəmərlərinin əsaslı təmiri ilə bağlı müvəqqəti istifadə üçün ayrılmış torpaq zolaqlarının eni və uzunu, müəyən edilmiş qaydada təsdiq olunan layihə ilə təyin edilməli və eyni zamanda bu zolaqların eni müvafiq diametrli boru kəmərləri üçün cədvəl 1-də nəzərdə tutulan ölçülərdən artıq olmamalıdır.*

*5. Magistral boru kəmərlərinin mühafizə zonaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 iyun 1999-cu il tarixli, 103 №-li qərarı ilə təsdiq edilmiş «Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları»na və 2 noyabr 2004-cü il tarixli, 162 №-li qərarı ilə təsdiq edilmiş «İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonasının" müəyyənləşdirilməsi Qaydaları»na əsasən müəyyən edilir və tənzimlənir.*

6. Yeraltı magistral boru kəmərləri üzərindəki torpaqların təyinatı üzrə istifadəsi torpaq istifadəçiləri tərəfindən boru kəmərlərinin mühafizəsinin təmin edilməsi üzrə şərtlərə riayət etməklə həyata keçirilməlidir.

Cədvəl 2

| Boru kəmərinin diametri, mm | Yanaşı qoyulan magistral boru kəmərlərinin oxları arasında məsafə, m | |
|---|---|---|
| | Qaz kəmərləri | Neft kəmərləri və neft məhsulları kəmərləri |
| 1. 426 mm-ə qədər (426 mm daxil olmaqla) | 8 | 5 |
| 2. 426 mm-dən artıq 720 mm-ə qədər (720 mm daxil olmaqla) | 9 | 5 |
| 3. 720 mm-dən artıq 1020 mm-ə qədər (1020 mm daxil olmaqla) | 11 | 6 |
| 4. 1020 mm-dən artıq 1220 mm-ə qədər (1220 mm daxil olmaqla) | 13 | 6 |
| 5. 1220 mm-dən artıq 1420 mm-ə qədər (1420 mm daxil olmaqla) | 15 | 7 |

*Q e y d: 1. Yanaşı qoyulmuş müxtəlif diametrli boru kəmərlərinin oxları arasında məsafəni böyük diametrli boru kəməri üçün müəyyən edilmiş məsafəyə bərabər qəbul etmək lazımdır.*

*2. Bir xəndəkdə eyni zamanda qoyulan iki neft kəməri və neft məhsulları kəmərləri arasındakı məsafəni cədvəl 2-də göstərilənlərdən az, lakin boru kəmərlərinin divarları arasındakı məsafə 1 m-dən az olmamaqla qəbul olunmasına yol verilir.*